Tanınma	**Fənn**	**THM 810 Mədəni irs və turizm (6 ECTS)**	
	Departament	İqtisadiyyat və Menecment	
	Program	Magistr	
	Semestr	2021/22-ci ilin payız semestri	
	Müəllim	t.ü.e.d.prof.Minaxanım Əsədova	
	Otaq/saat		
Şərtlər	Yox		
Dil	Azərbaycan		
İcbari/Seçki	İcbari		
Dərsliklər və kurs materialları	Əsədova M.R. Muzeyin müasir interpretasiyası (dərslik),B.,2020 Abbasov N. Mədəniyyət siyasəti və mədəni dəyərlər B,2009. 395 səh. Bilalov B.Ə. Turizm fəaliyyətinin tənzimlənməsi B,2006 280 səh. **Müxtəlif konfranslardan prezentasiyalar Əsədova M.R.**		
Tədris metodları	**Case təhlili**		
	Qrup müzakirəsi		x
	Labaratoriya		
	Mühazirə		x
	Kurs sənədi		
	Case təhlili		x
	Digər		

Qiymətləndirmə kriterləri	**Metodlar**	**Son tarix**	**Faiz (%)**
	Aralıq imtahanı		30
	Case təhlili		10
	Davamiyyət		5
	Aktivlik		5
	Prezentasiya		10
	Final imtahanı		40
	Yekun		100

Kursun Məqsədi	Kursun əsas məqsədi Azərbaycan mədəniyyətinin tədqiqi, turizm vasitəsi ilə təbliği xüsusiyyətlərini öyrətməkdir. O cümlədən maddi və qeyri maddi irsin öyrənilməsi, mədəni turizmin inkişfına şəraitin yaradılmasıdır.
Kursun Xülasəsi	Proqramın əsas istiqamətləri: mədəni irsin əsas aspektləri, qorunması, müxtəlif üsullarla beynəlxalq aləmdə təbliğatı, mədəni turizmin öyrənilməsi, inkişafı, ölkənin beynəlxalq aləmdə mədəni turizm vasitəsi ilə tanınmasıdır.
Kursun yekununda	Tələbələrdə Azərbaycanın zəngin maddi və mənəvi irsi və mədəni turizm haqqında aydın təsəvvür yaranmalıdır. Eyni ilə magistr tələbələr Dövlətin mədəniyyət siyasətinə uyğun şəkildə milli mənəvi dəyərlərin öyrənilməsi, turizmin müsir üsulları ilə təbliğatını bilməlidirlər. **Case təhlili –** Magistr tələbələrə Azərbaycan mədəniyyətindəki hadisələr təqdim olunacaq, mədəni turizm sahəsində olan problemlər təhlil ediləcək, həlli yollarını müəllim ilə magistr tələbələrlə birgə araşdıracaq. Bundan sonra magistr tələbələrə Azərbaycan mədəniyyətindəki və mədəni turizm sahəsindəki müxtəlif hadisələr təqdim olunacaq və tələbələr özləri həlli yollarını tapacaqlar. **Prezentasiya** Hər magistr tələbəyə mədəni turizmin istiqamətlərindən birinə aid olan mövzu verilir. (Məsələn hər hansı tarixi abidə, qoruq yaxud muzey.) Tələbə həmin abidə haqqında mayerial toplamalı, təqdimat hazırlamalı və cavab verməlidir. **Davamiyyət** Tələbələrin dərslərdə iştirakına görə verilir. **Aktivlik** Dərsdə verilən suallar və tapşırıqların yerinə yetirilməsinə əsasən verilir.

Tematik plan

Həftə	**Tarix**	**Mövzular**	**Dərslik/Tapşırıq**
1		**Mövzu 1. Mədəni irsin yaranması və inkişafı.** Maddi və qeyri maddi mədəniyyət nümunələri ilə tanışlıq. Onlar haqqında	Mədəniyyət tarixi və nəzəriyyəsi B,2007

		müqayisəli təhlillərin aparılması. Mədəni irsin hansı mexanizmlərlə beynalxalq qurumlara təqdim olunma qaydaları. Milli mədəni irsin təblığ olunması.	Mədəni irs bölməsi
2		**Mövzu 2. YUNESKO-nun mədəni irs siyahısı və onun şərtləri.** Umumdunya mədəni irsinin mühafizasinə dair konvensiyanın əsas maddələri. Konvensiyaya müvafiq Mədəni irs anlayışının tərifi. Komitə və onun fəaliyyəti Mədəni irs siyahısının tərtib olunma qaydaları. Müxtəlif ölkələrin bu siyahıda təmsil olunması.**Praktik materialın nümayişi.** **Case təhlili**	Abbasov N. Mədəniyyət siyasəti və mədəni dəyərlər B,2009. III hissə
3		**Mövzu 3.Azərbaycanda qeyri maddi mədəni irsin müasir turizmin inkişafına təsiri**. Azərbaycanda qeyri-maddi mədəni irsin qorunması və tanınması ilə bağlı axtarışlar	Bilalov B.Ə. Turizm fəaliyyətinin tənzimlənməsi, Mütərcim, Bakı: 2006 s.52-62
4		**Mövzu 4 Mədəni turizmin əsas sahəsi olan muzeylərdə mədəni irsin təbliği**. Mədəni turizm anlayışının təhlili. İstiqamətlərinin öyrənilməsi. Milli statuslu muzeylərlə tanışlıq **Case təhlili**	M.R.Əsədova. Memorial muzeylərin fəaliyyəti, B. 2017 2-ci bölmə Təqdimat
5		**Mövzu 5 Mədəni irsin memorial muzeylər vasitəsilə öyrənilməsi və təbliği.** Memorial və mənzil muzeylərinin fərqli cəhətləri. Turizmin inkişafı və milli mənəvi dəyərləein təbliğatında əhəmiyyət	M.R.Əsədova. Memorial muzeylərin fəaliyyəti, B. 2017 1-ci bölmə Təqdimat
6		**Mövzu 6. Azərbaycanda muzeyşünaslıq və dövlət siyasəti**Azərbaycanda mədəniyyət siyasəti: muzey və mədəni abidlərin qorunmasina dair normativ-hüquqi aktlar. Azərbaycanda muzeyşünaslıq, muzey turizmi sahəsində olan problemlər və prespektivlər	Sabir Əmirxanov Nəzəri muzeyşünaslıq (monoqrafiya) B, 2009 II fəsil
7		**Mövzu 7. Şirvanşahlar Saray Kompleksi mədəni turizm obyekti kimi** Tarixi abidələrin Azərbaycanda mədəni turizmin inkişafında rolu. Şirvanşahlar saray kompleksində bərpa və konservasiya. Şirvanşahlar Saray Kompleksində müasir turizm texnologiyalarının tətbiqi	M.R.Əsədova Muzeyin müasir interpretasiyası (dərslik) B.2007 1-ci bölmə Təqdimat
8		**Mövzu 8.Ümumdünya mədəni irs siyahısına daxil olan Qobustan dövlət tarix və bədii Qoruğunun öyrənilməsi**. Qoruğun tədqiq edilməsi, yaradılması tarixi, turizmin inkişafında rolu. **Aralıq imtahanı**	M.R.Əsədova Muzeyin müasir interpretasiyası (dərslik) B.2007 1-ci bölmə Təqdimat
9		**Mövzu.9. Ənənəvi xalçaçılıq sənətinin inkişafı-mədəni irsin öyrənilməsində əhəmiyyəti**. Azərbaycan xalçalarının dünya muzeylərində başqa dövlətlərin adı ilə təbliğatı problemləri. **Case təhlili**	M.R.Əsədova Bərpa və konservasiya (dərslik)2017 (I hissə)Təqdimat
10		**Mövzu 10**. **Qala dövlət tarix etnoqrafiya qoruğu mədəni turizm müəssisəsi kimi.** Yaradılma tarixi, təsviri, tədqiqatı,	M.R.Əsədova Muzeyin müasir interpretasiyası

		təbliği problemləri.	(dərslik) B.2007 1-ci bölmə Təqdimat
11		Mövzu 11. **Şəki şəhəri tarixi memarlıq abidələrinin turizm üçün əhəmiyyəti.** Şəki Xan Sarayı, tarix diyarşünaslıq muzeyi, ev muzeyləri, tarixi abidələrin öyrənilməsi	Gülbəniz Səfərəliyeva, Azərbaycanın tarixi abidələri və toponimləri 2016 s.288-294Təqdimat
12		**Mövzu 12 Qəbələ şəhəri tarixi memarlıq abidələrinin turizm üçün əhəmiyyəti.** Turistləri cəlb edən görməli yerləri. Tarxi diyarşünaslıq muzeyi. Tufanda kompleksi, Qəbələnd, yeddi gözəl şəlaləsi, tarixi abidələri və s.	Gülbəniz Səfərəliyeva, Azərbaycanın tarixi abidələri və toponimləri 2016 s.96; 284 Təqdimat
13		Mövzu 13. **İşğaldan azad olunmuş ərazilərdə mədəni tarixi abidələrin öyrənilməsi.** Talan olunuş maddi və qeyri maddi irsin bərpa olunması. Bu ərazilərdə yeni tipli muzeylərin, ədəniyyət müəssisələrinin yaradılmasını turizm üçün əhəmiyyətinin təhlili, axtarışlar, təkliflər.	AMEA Azərbaycan arxeologiyası I cild.B.,2008 II fəsil Təqdimat
14		**Mövzu 14. Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahının təhlili** "Azərbaycan Muğamı", "Azərbaycan Aşıq Sənəti", "Novruz", "Tar və Onun İfaçılıq Sənəti, "Azərbaycan Respublikasında Çovqan Ənənəvi Qarabağ Atüstü Oyunu" "Ənənəvi Kəlağayı sənəti və simvolizmi, qadın ipək baş örtüklərinin hazırlanması və istifadə olunması" mövzularının mədəni turizmin ikişafında əhəmiyyəti .Müqayisəli təhlillər.	Rasim Əfəndiyev Azərbaycanın maddi mədəniyyət nümunələri(geyilər) B., 1960 Təqdimat
15		**Mövzu 15. Mədəni turizmin inkişfında Milli mətbəx nümunələrinin əhəmiyyəti.** Qeyri maddi irs siyahısına salınmış milli yeməklər. **Case təhlili**	CeyhunZərbəliyev. Mətbəx turizmi imkanlar,perspektivlər. Mədəniyyət 05.09.2012Təqdimat
		Final İmtahanı	